**1.** Düzbucaqlının bucaqlarından birinin tənböləni onun tərəfini yarıya bölür. Düzbucaqlının kiçik tərəfi 4 sm-ə bərabərdir. Onun perimetrini tapın.

*(27 aprel 2025, DİM)*

**2.** Daxili bucaqlarının cəmi $1800^{\circ}$ olan qabarıq çoxbucaqlının tərəflərinin sayını tapın.

A) 6 B) 8 C) 10 D) 14 E) 12

*(20 aprel 2025, DİM)*

**3.** Tərəfi 12 sm olan kvadratın primetrini tapın.

A) 34 sm B) 48 sm C) 36 sm
D) 24 sm E) 46 sm

*(13 aprel 2025, DİM)*

**4.** $O$ nöqtəsi $ABCD$ rombunun diaqonallarının kəsişmə nöqtəsidir. $AO=6$ və $BO=8$ olarsa, rombun perimetrini tapın.




*(5 may 2024, DİM)*

**5.** $ABCD$ paraleloqramında $BD$ diaqonaldır. $\angle 1+\angle 3=60^{\circ}$ və $\angle 4+\angle 2=150^{\circ}$ olarsa, $\angle 1$-in dərəcə ölçüsünü tapın.




*(21 aprel 2024, DİM)*

**6.** $ABCD$ paraleloqramının $A$ bucağının tənböləni onun $BC$ tərəfini $B_1$ təpəsindən başlayaraq $3:2$ nisbətində bölür. $AB=18\ sm$ olarsa, paraleloqramın perimetrini tapın.

*(7 aprel 2024, DİM)*

**7.** Perimetri 20 sm, iti bucağı 60° olan bərabəryanlı trapesiyanın diaqonalı oturacaqla 30°-li bucaq əmələ gətirir. Trapesiyanın kiçik oturacağının uzunluğunu tapın.

*(17 mart 2024, DİM)*

**8.** Qabarıq çoxbucaqlının diaqonallarının sayı 20 olarsa, tərəfinin sayını tapın.

A) 8 B) 5 C) 7 D) 6 E) 9

*(30 aprel 2023, DİM)*

**9.** Düzbucaqlının uzunluğu 24 sm, diaqonalı isə 30 sm olarsa, bu düzbucaqlının enini tapın.

A) 18 sm B) 12 sm C) 15 sm
D) 9 sm E) 39 sm

*(16 aprel 2023, DİM)*

**10.** Bərabəryanlı trapesiyanın orta xətti 6 sm-dir. Trapesiyanın diaqonalı böyük oturacaqla 30°-li bucaq əmələ gətirir. Trapesiyanın iti bucağının 60° olduğu məlumdursa, perimetrini hesablayın.

*(9 aprel 2023, DİM)*

**11.** Şəkildə düzbucaqlı verilmişdir. $x$-i tapın.




A) 4 B) 3 C) $3\sqrt{3}$
D) 2 E) 1

*(1 may 2022, DİM)*

**12.** $ABCD$ bərabəryanlı trapesiyasında $CH$ hündürlük, $BC = 6\ sm$, orta xətt $MK = 16\ sm$ olarsa, $HD$-ni tapın.




A) 10 B) 22 C) 11
D) 26 E) 5

*(1 may 2022, DİM)*

**13.** Pareleloqramın kor bucağı iti bucağından 2 dəfə böyük olarsa, onun bucaqlarını tapın.

A) $60°, 120°$ B) $70°, 140°$
C) $80°, 100°$ D) $30°, 150°$
E) $40°, 140°$

*(30 aprel 2022, DİM)*

**14.** Daxili bucaqlarının cəmi 1980° olan qabarıq çoxbucaqlının tərəflərinin sayını tapın.

*(24 aprel 2022, DİM)*

**15.** Düzbucaqlının uzunluğu enindən 3 sm böyükdür. Perimetri 26 sm olarsa, düzbucaqlının sahəsini tapın.

*(23 aprel 2022, DİM)*

**16.** $ABCD$ düzbucaqlısında BD və AC diaqonallar, $\angle BOA = 50°$ olarsa, $\angle BAO$-nu tapın.




*(17 aprel 2022, DİM)*

**17.** Düzbucaqlının uzunluğu 12 sm, diaqonalı 13 sm olarsa, onun enini tapın.

A) 5 sm B) 1 sm C) 25 sm
D) 10 sm E) 2 sm

*(16 aprel 2022, DİM)*

Düzgün cavablar

1 (24) 2E 3B 4 (40) 5 (30) 6 (96)

7 (4) 8A 9A 10 (20) 11B 12A 13A

14 (13) 15 (40) 16 (65) 17A